**ZÜMRÜD MƏLIKOVA**
***Bakı Slavyan Universiteti***
***Beynəlxalq münasibətlər kafedrasının baş müəllimi***

# ŞƏRQI AVROPADA SIYASI ISLAHATLAR: PROBLEMLƏR VƏ ƏSAS ISTIQAMƏTLƏR

XX əsrin 80-ci illərinin II yarısı beynəlxalq münasibətlərdə əlamətdar hadisələrlə yadda qalmışdır. Belə ki, məhz bu dövrdə ikinci dünya müharibəsindən sonra bərqərar olmuş Yalta-Potsdam sistemi iflasa uğramış, Şərq blokuna daxil olan sosialist ölkələrində demokratik proseslər kommunist rejimlərinin sona çatmasına səbəb olmuş, Berlini iki hissəyə bölən daha çox simvolik məna kəsb edən Berlin divarı dağıdılmışdır. Berlin divarının Berlin sakinləri tərəfindən dağıdılması ilə Almaniyanın birləşdirilməsi prosesinə start verildi. Ən əsası isə, 80-ci illərin II yarısında sovet siyasi rəhbərliyinin SSRİ-nin siyasətində dəyişiklik edərək hərbi potensialını azaltmağa, siyasi sistemlərin demokratikləşməsi yolunda ilk addımlar atmağa hazır olduğunu elan etməsi oldu.

1985-ci ilin martında Sov.İKP MK-nın Baş katibi seçilən M.Qorbaçova əvvəlki rəhbərlikdən böhran vəziyyətində olan ölkə miras qalmışdı. Belə vəziyyətdə dünyanın iki böyük dövlətindən biri olan SSRİ köhnə konservativ siyasətdən imtina etməli, ölkədə iqtisadi, elmi-texniki və əlbəttə ki, kadr dəyişikliyi aparmalı, Qərblə qarşıdurmadan çəkinməli idi. [4, s. 450]

Strateji məsələlərə dair ABŞ və SSRİ arasında yaradılmış dialoq 1983-cü ildə kəsildikdən sonra tərəflər arasında kosmik və nüvə silahlarına dair danışıqlar 1985-ci ilin martında Cenevrədə bərpa edildi. Bundan öncə isə, 1985-ci ilin fevralında Sovet İttifaqı gözlənilməz addım ataraq bir sıra sovet atom elektrik stansiyalarının reaktorlarına beynəlxalq nəzarətin qoyulması haqqında MAQATE ilə müqavilə imzaladı. Həmin ilin aprelində yeni sovet rəhbərliyi amerikan orta mənzilli raketlərin və qanadlı raketlərin Avropada yerləşdirilməsi ilə bağlı cavab tədbirlərinin görülməsinə moratorium qoyulması haqqında bəyanat verdi. Bununla Moskva Qərbi Avropa və ABŞ-la münasibətləri yaxşılaşdırmaq niyyətini nümayiş etdirdi. ABŞ-ın qərbi avropalı müttəfiqləri rəsmi Moskvanın xarici siyasətində dəyişiklik etmək niyyətini ümidlə qarşıladılar.

Yüksək səviyyəli Sovet-amerikan danışıqlarından öncə M.Qorbaçov ABŞ-ın qərbi avropalı müttəfiqləri ilə görüşmək və tanış olmaq imkanını əldən vermədi. 1985-ci ilin noyabrında isə M.Qorbaçov və R.Reyqanın Cenevrədə görüşü baş tutdu. Cenevrə görüşü daha sonra silahlar üzərində nəzarət məsələləri ilə bağlı keçirilən silsilə görüşlərin əsasını qoydu. Cenevrədə keçirilən sovet-amerikan sammitinin praktiki nəticəsi olmasa da, bu görüş Sovet İttifaqına ABŞ-la dialoqa başlamağa imkan verdi.

Qeyd etmək lazımdır ki, 70-ci illərin sonu-80-ci illərin əvvəlləri SSRİ və onun müttəfiqləri üçün yeni daxili və xarici- siyasi çətinliklərlə yadda qaldı. İqtisadi və texnoloji sahələrdə durğunluq və yeni inkişaf yollarından axtarışından imtina etmək Sovet İttifaqının sosial-iqtisadi vəziyyətin pisləşməsinə gətirib çıxardı. Həmçinin beynəlxalq vəziyyət də pisləşdi. Əgər əvvəllər Şərqi Avropa ölkələrində antikommunist çıxışlar daxili səbəblərdə törəyən "partlayış" xarakteri daşıyırdısa, 1980-ci ildə "Həmrəylik" (Solidarność) həmkarlar birliyi adı altında əhalinin əhəmiyyətli hissəsinin rəğbətini qazanmış, eləcə də xaricdən böyük maddi dəstək alan kütləvi antikommunist partiya meydana çıxdı.

Qərblə münasibətləri daha da mürəkkəbləşdirməmək üçün SSRİ Polşaya birbaşa hərbi müdaxilədən çəkindi. 1981-ci ilin dekabrın 13-də fövqəladə vəziyyətin tətbiq edilməsi vəziyyəti müəyyən müddətə "dondurdu". Birlik daxilində vəziyyətə müdaxilə yerinə sovet

rəhbərliyi həm daxili, həm də xarici "əksinqilabi fitnə"ni qınamaqla qənaətləndi. Antisovet və antikommunist mahiyyətə malik "Həmrəylik" hərəkatı monolit və sarsılmaz görünən sistem üzərində ilk iri qələbəsini qazandı. Digər Şərqi avropa ölkələrinin milli elitası Qərbin dəstəyi ilə mövcud sistemi tam dağıtmağın mümkünlüyünü və Sovet İttifaqının buna qarşı qəti münasibət göstərməyəcəyini dərk etdilər. Lakin sovet qüdrəti qarşısında müəyyən qorxu hələ də qalmaqda idi. 1987-ci ilin yanvarında Moskvada Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin plenumu keçirildi. Bu plenumda SSRİ-nin iqtisadi və siyasi həyatının bütün sahələrində "aşkarlıq" və "yenidənqurma" xətti elan olundu. Yeni seçilmiş sovet lideri M.Qorbaçovun beynəlxalq münasibətlərdə qarşıdurmadan imtina etdiyini elan etməsi, "qüvvələr balansı"ndan "maraqlar balansı"na keçməyə çağırışı və bütün sosialist ölkələrinin SSRİ ilə münasibətlərində onların bərabərhüquqluğu və tam suverenliyini tanıması, eləcə də sosializm quruculuğunun forma və yollarının müxtəlifliyini və mümkünlüyünü bəyan etməsi bu qorxunu tədricən aradan götürdü. "Yeni siyasi təfəkkür"ün prinsipləri Qərbdə müsbət qarşılandı və Şərqi avropa bölgəsi ölkələrində, xüsusən isə mərkəzi avropa ölkələrində böyük heyranlıqla qarşılandı. Lakin "sosializmin yeniləşdirilməsi" ictimaiyyətin böyük hissəsi tərəfindən dəstəklənmədi. 80-ci illərin sonunda SSRİ-də "yenidənqurma"nın uğursuzluğu yığılıb qalmış iqtisadi və siyasi problemlərin artmasını açıq-aydın göstərdi.QİYŞ və VMT-nın fəaliyyəti iflic vəziyyətə düşdü. [2, s.205]

Qeyd olunduğu kimi, 80-ci illərin II yarısında sovet rəhbərliyinin SSRİ-nin siyasətində dəyişikliklər etməsi Avropanın siyasi həyatında dönüşə səbəb oldu. Belə ki, beynəlxalq arenada "sinfi mübarizə"stereotiplərindən tədricən imtina edən hərbi potensialların müəyyən qədər ixtisarına razılaşan, siyasi sistemin demokratikləşməsi sahəsində ilk addımlar atan sovet hökuməti insan hüquqlarının təmini üçün beynəlxalq mexanizmlərdə iştiraka razılıq verdi.

SSRİ-nin sovet təsir dairəsinə daxil olan ölkələrin işlərinə birbaşa, eləcə də hərbi müdaxiləni nəzərdə tutan "Brejnev doktrinası"ndan imtina etməsi prinsipial əhəmiyyət daşıdı. 1989-cu ildə Polşada iyun seçkiləri nəticəsində hakim Polşa Birləşmiş Fəhlə Partiyası (PBFP) hakimiyyətdəki monopoliyasından məhrum oldu. Sosialist düşərgəsində bu böyük narahatzılıq doğurdu və kommunist rejimlərinin liderləri güc vasitəsilə Polşada hakimiyyəti bütünlüklə PBFP-yə qaytarmaq haqqında bəyanat verdilər. Lakin M.Qorbaçovun 1989-cu ilin iyulun 6-da Avropa Şurasındakı çıxışı bütün mübahisələrə son qoydu: "Hər hansı ölkənin, onun dost və ya müttəfiq olmasından asılı olmayaraq daxili işlərinə qarışmaq, dövlətin suverenliyini məhdudlaşdırmaq cəhdləri yolverilməzdir". [5, s. 305]

SSRİ-də başlanmış "yenidənqurma" və "aşkarlıq" siyasətini Şərqi avropalı kommunistlər tərəddüdlə müşahidə edirdilər. Xüsusən ADR, Rumıniya və Bolqarıstanda formalaşmış avtoritar rejimlər başda Erix Honekker, Nikolae Çauşesku və Todor Jıvkov olmaqla "yenidənqurma"ya xüsusi ehtiyatlıqla yanaşdılar. [4, s.479] Şərqi Avropada təsir zonasını qoruyub saxlamağın səmərəsiz olduğu qənaətinə gələn sovet hakimiyyəti bu bölgə ölkələrində kommunist hökumətlərinin hakimiyyətini müdafiə etmək üçün məsuliyyət daşımaq istəmədi. Ya Şərqi Avropa ölkələri "Qorbaçov modeli"nə uyğun olaraq dəyişilməli, ya da gələcəkləri üçün özləri cavabdeh olmalı idilər. 1989-cu ilin oktyabrında Finlandiyada rəsmi səfərdə olduğu zaman Qorbaçovdan ADR-də vəziyyətlə bağlı fikri soruşulduqda sovet lideri SSRİ-nin Şərqi Avropa ölkələrinin işlərinə qarışmaq niyyətində olmadığını bəyan etdi. Bu sözlərlə Moskva "sosialist internasionalizmi"doktrinasından imtina etdiyini bildirdi.

Təbii ki, SSRİ rəhbərliyinin Brejnev doktrinasından imtina etməsi 1989-cu ilin ikinci yarısında Mərkəzi və Şərqi Avropada demokratik inqilablara gətirib çıxardı. Kommunist rejimləri bir-birinin ardınca iflas edərək hakimiyyəti demokratik qüvvələrə verdilər. Macarıstan və Polşanın ardınca ADR, Bolqarıstan, Çexoslovakiya, Rumıniya və Albaniya qər-

bə üz tutaraq əsasını demokratiya, siyasi plüralizm, bazar iqtisadiyyatı təşkil edən islahatları həyata keçirmək yolunu seçdilər.1989-cu ilin noyabrında Berlin divarının sökülməsi simvolik xarakter daşımaqla yanaşı Şərq bloku ölkələrinin tarixində yeni eranın başlanğıcını qoydu. 1990-cı ildə keçirilən azad çoxpartiyalı seçkilər Şərqi Avropanın əksər ölkələrində kommunizmin, eləcədə Yalta-Potsdam sisteminin süqutunu təsdiqlədi.

1989-cu il dekabrın 3-də Aralıq dənizində yerləşən Malta adasında M.Qorbaçovla ABŞ prezidenti Corc Buş arasında görüş baş tutdu.Maltada tərəflər arasında Şərqi Avropada baş verən hadisələrə qarışmamaq haqda razılıq əldə olundu.Maltada Şərqi Avropada vəziyyət müzakirə olunsada, onu qeyd etmək lazımdır ki, bu dövrdə Rumıniya istisna olmaqla, demək olar ki, Şərqi Avropada antikommunist transformasiya faktiki olaraq başa çatmışdı. Malta görüşü zamanı ABŞ və SSRİ rəhbərləri **"soyuq müharibə"nin** başa çatdığını rəsmi olaraq elan etdilər. [4, s.480] Beləliklə, 1946-cı ilin martında U.Çörçilin Fulton çıxışı zamanı elan etdiyi soyuq müharibə 43 il sonra başa çatdı. Sovet rəhbərliyinin elan etdiyi "yenidənqurma" sosialist düşərgəsində hökumət əleyhinə çıxışlara təkan vermişdi. Hətta antisovet və antirus meylli siyasətçilər belə M.Qorbaçovun şəxsində və "yenidənqurma"da yenilik, dəyişiklik görürdülər. Şərqi Avropa bölgəsində "sosializmin yeniləşməsi" uğrunda hərəkat başlandı və bu köhnə siyasi sistemin kortəbii şəkildə dağıntısına gətirib çıxardı.

Polşada general Voytsex Yaruzelski 1981-ci ildə həyata keçirdiyi sərt tədbirlər nəticəsində ölkədə vəziyyəti sabitləşdirməyə nail oldu. O öz şəxsi hakimiyyətini möhkəmləndirməklə qənaətlənməyib təkrar etiraz dalğasına yol verməmək üçün müxalifətlə dialoqu inkişaf etdirdi.Dövlət nümayəndələri ilə katolik kilsə arasında ünsiyyət yaradıldı.1986-cı ilin sentyabrında amnistiya elan olundu və bu "Həmrəyliy"in rəhbərlərinə fəaliyyətlərini bərpa etmək imkanı verdi. Mədəniyyət sahəsində senzura yumşaldıldı. 1987-ci ildə Polşanın qərb ölkələri ilə əlaqələri yaxşılaşdı və 1981-ci ildə elan edilmiş hərbi vəziyyətlə əlaqədar PXR-ə qarşı tətbiq edilən iqtisadi sanksiyalar ləğv edildi. [4, s.480] Polşa BVF-na qəbul olundu və borclarının bir hissəsi silindi. 1988-ci ildə polyak hakimiyyəti bütün siyasi partiya və hərəkatları "dəyirmi masa"ya dəvət etdi. 1989-cu ilin fevral-aprel aylarında keçirilmiş "dəyirmi masa"nın birinci iclasında Polşa Birləşmiş Fəhlə Partiyasının rəhbərləri "Həmrəyliy"i leqallaşdırmağa və ölkənin siyasi sistemində bir sıra dəyişikliklər etməyə razılaşdılar. Çoxpartiyalı əsasda seçkilər keçirərək və parlamentin ikinci palatasının-senatın təsis edilməsi əsas güzəştlərdən idi. Əvvəlcədən seymin mandatlarının 65%-nin hökumətə verilməsi, qalan mandatlar uğrunda isə demokratik prinsiplərə uyğun olaraq seçki mübarizəsi aparılacağı haqqında razılıq əldə olundu. Seçkilər 1989-cu ilin iyununa təyin edildi. Hər iki tərəf bir-birinin zəif və güclü nöqtələrini bilirdi. Sovet İttifaqının dəstəklədiyi Polşa Birləşmiş Fəhlə Partiyası orduya və repressiya aparatına malik idi. Eləcə də Sovet ordusunun Polşada dislokasiya olunmuş hissələri mövcud idi. Lakin "Həmrəylik" xalqın əksəriyyəti tərəfindən dəstəklənirdi və bu xüsusi əhəmiyyət daşıyırdı. [1, s.346]

1989-cu il iyun seçkilərindən sonra "Həmrəylik" seymdə keçmiş qeyri-kommunist partiyalar ilə koalisiyaya daxil oldu. Polşa Birləşmiş Fəhlə Partiyası azlıqda qaldı. 1989-cu ilin sentyabrında müxalifət nümayəndəsi Tadeuş Mazovetskinin başçılığı altında ilk qeyri-kommunist hökumət formalaşdı. 1989-cu ilin iyulunda Yaruzelski partiyadakı vəzifəsindən imtina edib parlamentin hər iki palatası tərəfindən ölkə prezidenti seçildi. "Həmrəyliy"in xadimlərindən olan T.Mazovetskinin Polşa hökumətinə başçılıq etməsi M.Qorbaçov tərəfindən alqışlandı. [3, s.371] Polşa iqtisadiyyatı əvvəlki tək faciəvi vəziyyətdə idi. "Lex Valensa komandası" Polşanın siyasi və iqtisadi cəhətdən yenidənqurulması yükünü öz çiyinlərinə götürməli oldu. Bu vəzifəni yerinə yetirmək çətin idi,belə ki, SSRİ əvvəlki tək mövcud idi və Polşada hakimiyyətin böyük hissəsi kommunistlərin əlində cəmlənmişdi. [1, s.351] 1990-cı ilin yanvarında PBFP adını dəyişdirərək sosial-demokrat partiyası oldu.

Polşa prezidentinin birbaşa seçkilər yolu ilə seçiləcəyi müəyyənləşdirildi. Seçkilərdən öncə V.Yaruzelski öz namizədliyini irəli sürməkdən imtina etdi və Polşa prezidenti müstəqil həmkarlar birliyi "Həmrəyliy"in lideri Lex Valensa seçildi. Baş nazir T.Mazovetski hökuməti tarixə Baltseroviç islahatları (Şok terapiyası) adı ilə daxil olmuş ölkə həyatının demək olar bütün sahələrini əhatə edən islahatlara başladı. "Şok terapiyası"nın əsasını qiymətlərin dövlət tərəfindən tənzimlənməsi, əmək haqqının tənzimlənməsində sərt siyasətin tətbiq edilməsi eləcə də, pul-kredit və maliyyə siyasətinin möhkəmləndirilməsi və s. təşkil edirdi. [7] Siyasi mübahisələr və müxtəlif çətinilklərə baxmayaraq III Reç Pospolitanın əsasının qoyulması prosesinin əsas mərhələsi başa çatdı. 1990-cı ilin dekabrında Polşada həyata keçirilən dəyişikliklərin təsdiqini simvolizə edərək mühacir polyak hökumətinin sonuncu prezidenti Rişard Kaçarovski təntənəli şəkildə hakimiyyəti Lex Valensaya təhvil verdi. [1, s.352]

1988-ci ildə Macarıstan Sosialist Fəhlə Partiyasının Mərkəzi Komitəsinin baş katibi Yanoş Kadar otuz iki il hakimiyyətdə olduqdan sonra vəzifəsindən getdi.Onun təkidi ilə bazar islahatları tərəfdarları siyasi büroya daxil edildi və 1989-cu ilin fevralında ölkədə çoxpartiyalılığa icazə verildi.MSFP, müxalifət partiyaları və ictimai təşkilatlar arasında Macarıstanın parlament demokratiyasına keçməsinə dair üçtərəfli danışıqlar başlandı. Ölkədə prezident vəzifəsi təsis edildi.

1989-cu ilin mayında macar hökuməti Avstriya ilə sərhədini açdı. Macarıstan və ADR arasında açıq sərhəd rejimi mövcud olduğu üçün Macarıstan və Avstriya üzərindən AFR-ə qaçmaq istəyən ADR vətəndaşlarının bu ölkəyə axını başlandı. Həmin ilin oktyabrında hakim MSFP Macarıstan sosialist partiyasına(əvvəlki MSFP üzvlərinin böyük hissəsi bu partiyaya daxil oldu) və Macarıstan kommunist partiyasına parçalandı. 1989-cu il oktyabrın 18-də Macarıstan parlamenti ölkə konstitusiyasına siyasi sistemi dəyişdirən 100-ə qədər əlavə qəbul etdi.[4, s.481-482 ] 1990-cı ilin əvvəlində çoxpartiyalı sistem əsasında seçkilərin keçirilməsi nəzərdə tutulurdu. İki əsas müxalifət partiyası meydana çıxdı: Macarıstan demokratik forumu (Qərbi Avropanın xristian demokratlarına yaxın olan) və Azad demokratlar ittifaqı. Eləcədə 50-ə qədər partiya yarandı.[3, s.374 ]

1989-cu il oktyabrın 23-də azad demokratik dövlət Macarıstan Respublikası elan olundu.1990-cı ilin yazında Dövlət məclisinə seçkilərdən sonra plüralist sistemin son təşəkkülü baş verdi.Bu seçkilərdə Macarıstan sosialist partiyası səslərin yalnız 11%-ni, Macarıstan demokratik forumu isə yerlərin əksəriyyətini qazandı.Forumun lideri Yozef Antall Macarıstanın yeni hökumətinə rəhbərlik etdi.

Şərq blokunun digər ölkələrində dəyişikliklər kütləvi hərəkatların iştirakı ilə aparıldı.1989-cu il noyabrın 10-da uzun müddət hakimiyyətdə olan Todor Jıvkov Bolqarıstan kommunist partiyasının Mərkəzi Komitəsinin baş katibi vəzifəsindən getməli oldu. Jıvkov dövlətə qarşı cinayətdə təqsirkar bilinərək həbs edildi. Jıvkovu əvəz edən Pyotr Mladenov müxalif ziyalılarla dialoq yaratmağa cəhd göstərdi.Lakin bu cəhd demokratikləşmə lehinə çıxışların qarşısını ala bilmədi.1989-cu ilin dekabrında müxalifət təşkilatı – "Demokratik qüvvələr ittifaqı" yaradıldı və bolqar hökuməti bu təşkilatın "milli dəyirmi masa"nın çağrılması tələbi ilə razılaşdı. Bu çərçivədə aparılan danışıqlar çətin keçdi, belə ki, mülkiyyət formalarının bərabərhüquqluluğunun elan olunması, hakimiyyətin bölünməsi prinsipinin həyata keçirilməsi və çoxpartiyalılıq haqda razılıq yalnız 1990-cı ilin martında əldə olundu. 1990-cı ilin aprelində Bolqarıstan kommunist partiyasının adı dəyişdirilərək sosialist partiyası oldu və 90-cı illərin ortalarınadək nüfuzlu siyasi qüvvə olaraq qaldı.Parlament seçkilərində topladığı səslərin sayına görə "Demokratik qüvvələr ittifaqı"nı qabaqladı. 1991-ci ilin oktyabrında ilk qeyrikommunist hökumət təşkil olundu.

1989-cu ilin mayında avstriya-macar sərhədinin açılması ilə ADR-in yarım milyon vətəndaşı ölkəni tərk etdi.Şərqi Almaniyada dinc antikommunist inqilabı başlandı. Ayrı-

ayrı şəhərlərdə hökumət əleyhinə çıxışlar və polislə toqquşmalar baş verdi.1989-cu oktyabrından ADR-in 40-cı ildönümünün təntənəli şəkildə qeyd olunması ilə bağlı sovet lideri M.Qorbaçov Berlinə səfər etdi. Hələ Berlində səfərdə olarkən M.Qorbaçov Honekkerin zamandan geri qaldığını və bunun təhlükəli olduğunu və nümayişləri yatırtmaq üçün SSRİ-nin yardımına ümid etməsinin qeyri-mümkünlüyünü bildirdi. [4, s.482] Bu səfər ADR kommunistlərinin Erix Honekkerə qarşı çıxışlarını sürətləndirdi və Vahid Almaniya Sosialist Partiyasının plenumunda o vəzifəsindən uzaqlaşdırıldı.VASP MK-nin baş katibi Eqon Krents seçildi.Bir ay sonra isə daha liberal kommunist Qreqor Gizi ilə əvəz olundu. Onun rəhbərliyi altında VASP Sosialist demokrat partiyası adlandırılmağa başlandı.1989-cu il noyabrın əvvəlində islahatçı reputasiyaya malik Hans Modrovun başçılığı altında koalision hökumət formalaşdırıldı. 1989-cu il noyabrın 9-da ADR ilə AFR arasında sərhəd açıldı.Elə həmin gün berlin sakinləri tərəfindən qitəni iki hissəyə bölən dəmir pərdə rolu oynamış Berlin divarı dağıdıldı.İki blok arasında qarşıdurmanı simvolizə edən bu divarın uzunluğu 160 km olmuş, tikintisinə isə 1961-ci ilin avqustunda başlanılmışdı. Divarın sökülməsi ilə şəhərin şərqindən və qərbindən berlin sakinləri bir tərəfdən digər tərəfə sərbəst hərəkət etməyə başladılar. Bu divarın dağıdılması Almaniyanın birləşdirilməsini sürətləndirdi. AFR kansleri Helmut Kol Berlin divarının sökülməsini alqışladı.Dəyərsiz şərqi alman markası qərbi alman markasının kursuna görə konvertləşdirildi. Şərqi alman dövləti (ADR) AFR-in tərkibinə 5 vilayət kimi daxil oldu.Dörd işğalçı dövlət Berlinə münasibətdə öz səlahiyyətlərini ləğv etdilər. Qorbaçov genişlənmiş Almaniyanın neytrallığını təmin etməyə cəhd göstərsə də, H.Kol ilə Qafqazda görüşü zamanı Şərqi Almaniyanın NATO-ya üzvlüyünə razılıq verdi. Əvəzində Qorbaçov rus qoşunlarının 1995-ci ilin sonunadək keçmiş Şərqi Almaniya ərazisində qalmasına, eləcədə NATO qoşunlarının və tabeliyində olan qüvvələrin bu ərazidə yerləşdirilməyəcəyinə təminat aldı.Almaniyanın birləşdirilməsi digər böyük dövlət başçıları, o cümlədən F.Mitteran və M.Tetçeri çaşqın vəziyyətə saldı. Almaniyanın güclənməsinin əleyhinə çıxış edən Tetçeri sakitləşdirmək üçün C.Buş çox əmək sərf etməli oldu. Almaniyanın birləşdirilməsi digər qonşu dövlət olan Polşa tərəfindən təhlükəli qiymətləndirildi və polyaklar müharibədən sonrakı sərhədlərinin təsdiqlənməsini tələb etdilər. Berlin divarının sökülməsinin I ildönümündə Almaniya tərəfindən Polşa sərhədlərinin tanınması haqda tərəflər arasında müqavilə imzalandı.

Şərqi Prussiya SSRİ-nin tərkibində qaldığı üçün yeni birləşdirilmiş Almaniya müharibədən öncəki Almaniya deyildi.Berlin divarının sökülməsi ilə Şərqi Almaniyanın iqtisadiyyatı da dağıldı.Müəyyən müddət birləşmiş Almaniyada zəifləmə müşahidə olundu. Almaniya Federativ Respublikası Şərqi almanların qərbə kütləvi miqrasiyasının qarşısını almaq üçün uğursuz cəhdlər göstərdi. AFR-in gördüyü bir sıra tədbirlər Şərqi Almaniya sənayesini iflasdan qurtara bilmədi. Buna baxmayaraq hökumət vəziyyəti və şərqin iqtisadiyyatını öz nəzarəti altında saxlaya bildi. İnfrastruktur modernləşdirildi, iqtisadiyyatda inzibati komanda forması ləğv edildi, istifadəyə yararlı müəssisələr özəlləşdirildi.[3, s.378]

Çexoslovakiyada islahat həyəcanı 1987-ci ildə M.Qorbaçovun Praqaya gəlişi ilə başlandı.1987-ci ilin dekabrında Qustav Qusak ÇSSR-in prezidenti vəzifəsində qalaraq ÇKP MK baş katibi vəzifəsini Miloş Yakeşə güzəştə getdi. Rəsmi Praqa "yenidənqurma"ya ehtiyatla yanaşsa da, iqtisadi islahatlar keçirməyə cəhd göstərdi. Bu islahatları 1988-ci ildə təşkil olunmuş Ladislav Adamets hökuməti həyata keçirməli idi. Lakin hələ 1968-də yatırdılmış müxalifət hərəkatı küçələrə çıxaraq rəhbərliyin planlarını pozdu. [4, s.483]

1989-cu ilin noyabrında Praqada tələbələrin etiraz çıxışları başlandı. Çexiyada "Vətəndaş forumu", Slovakiyada"Zorakılığa qarşı cəmiyyət" kimi müxalifət təşkilatları meydana çıxdı.M.Yakeş istefaya getdi. Kommunist partiyası müxalifətin təzyiqi altında ÇKP-nin hakim rolunun qeyd olunduğu maddənin ölkə konstitusiyasından çıxarılmasına ra-

zılaşdı. Dekabrın 10-da Q.Qusak ÇSSR prezidenti vəzifəsindən getdi.Çexoslovakiyada Marian Çalfanın başçılığı altında koalision hökumət təşkil olundu.Bu hökumətdə əsas vəzifələri keçmiş dissidentlər tutdu.1989-cu il dekabrın 29-da dramaturq Vaslav Havel ölkə prezidenti seçildi.Yeni hakimiyyət "Praqa baharı" zamanı kommunist partiyasının başçısı olmuş Aleksandr Dubçeki reabilitə etdi və o Federal Məclisin sədri oldu. Kommunist partiyası 1990-cı ildə keçirilmiş parlament və yerli seçkilərdə qəti məğlubiyyətə uğradı. Moskva ilə əldə olunmuş razılığa görə 70 min sovet əsgəri 1991-ci ildı Çexoslovakiyanı tərk etməli idi və həmin ilin iyulunda sovet ordusu ölkədən çıxarıldı.[3, s.378] Çexoslovakiyada siyasi rejimin transformasiyası elə dinc və xətərsiz aparıldı ki, 1988-1989-cu il hadisələri tarixdə "məxməri inqilab" adı aldı. [7] Siyasi sistemin dəyişməsi ilə Çexoslovakiya iki dövlətə-Çexiya və Slovakiyaya parçalandı. 5 milyon əhalisi olan Slovakiya Çexiya ilə müqayisədə kasıb ölkə idi və qərbə inteqrasiya yolunda daha çox səy göstərməli oldu.

SSRİ-dəki hadisələrlə bağlı həyəcan Şərq bloku ölkələrindən Rumıniyada daha çox hiss olunurdu.Sosialist dünyasında bu ölkənin yeri xüsusi idi. Bloklara qoşulmamaq hərəkatının üzvü olan Rumıniya 1967-ci ildə ərəb ölkələrinə təcavüzü səbəbindən İsraillə diplomatik münasibətləri kəsməkdən imtina edən yeganə müttəfiq ölkə olmuşdu.1968-ci ildə Çexoslovakiyaya VMT ölkələrinin müdaxiləsinə dəstək verməkdən imtina edən Rumıniyanın kommunist rejimi Qərbdə Şərqi Avropanın ən "liberal" ölkəsi hesab olunurdu.

SSRİ-də "yenidənqurma"nın həyata keçirilməyə başlanması ilə vəziyyət dəyişdi. Artıq bu dövrdə Rumıniyada N.Çauşesku apardığı sərt iqtisadi siyasətə, özünün və ailə üzvlərinin hakimiyyətdən sui-istifadəsinə, şəxsiyyətə pərəstiş və nəhayət Transilvaniya və Banatın macar əhalisinin "rumınlaşdırılması" siyasətinə qarşı etirazlar baş qaldırdı. XX əsrin 80-ci illərin sonunda Rumıniyanın kommunist rejimi sosialist düşərgəsində ən atil və durğun ölkə oldu.[4, s.479-480]

Stalinə bənzəməyə çalışan Çauşesku istəyinə çatmaq üçün insan təlafatının miqyasına və nəticələrinə məhəl qoymurdu. O şəxsi ordusuna və sərt polis rejiminə arxalanaraq Rumıniyada öz diktaturasını qurmuşdu. Bir müddət o antirus siyasəti yeridərək, sərt bəyanatlar verməklə ölkədə,eləcədə xaricdə müəyyən qədər təqdir edildi.(Varşava müqaviləsi çərçivəsində əməkdaşlıq etməkdən imtina etmək və Rumıniya ərazisinə xarici qoşunları buraxmaqla bağlı verilən bəyanatlar) Bir sıra dövlət xadimləri, o cümlədən C.Buş onun ünvanına təriflər söyləmiş,ingilis zadəgan tituluna layiq görülmüş, ayrı-ayrı ölkələrdə -Çin, Hindistan və İsraildə böyük təmtəraqla qarşılanmışdı.Lakin öz ölkəsində iqtisadiyyatı iflasa uğratmışdı. Onun əmri ilə məhv edilmiş 7 min kəndin əhalisi şəhərə miqrasiya etməyə və aşağı əmək haqqı müqabilində təmtəraqlı sarayların tikintisində çalışmağa məcbur olmuşdur. [3, s.381-382]

Rumıniyada kommunistlərin hakimiyyətdən gedişi qansız ötüşmədi.Ölkədə ilk çaxnaşmalar 1987-ci ildə Braşovda (Transilvaniya) macar əhalisi arasında baş verdi. Ardınca belə hadisələr 1989-cu ilin dekabrında Timişoarda (Şərqi Banat) təkrarlandı. Bu nümayişlərdə macarlar kimi,rumınlar da iştirak edirdilər. Nümayişlər yatırılarkən yüzlərlə insan öldürüldü. Bir neçə gün sonra belə qanlı hadisələr Buxarestdə N.Çauşesku hakimiyyətinə qarşı çıxış edən nümayişçilərə münasibətdə təkrarlandı. Rumıniyanın "Sekuritate" təhlükəsizlik polisi nümayişçilərə divan tutdu.

1989-cu il dekabrın 22-27-də Rumıniyada hadisələr özünün pik nöqtəsinə çatdı. Çauşeskunun şəxsi ordusu və təhlükəsizlik polisinə qarşı nizami ordu çıxış etdi. Minlərlə insan məhv edildi.N.Çauşesku və onun arvadı Yelena Çauşesku paytaxtı tərk edərək ölkədən qaçmağa cəhd göstərdikdə həbs edilib mühakimə olunmadan güllələndilər.Onlar "soyqırım, rüşvətxorluq və iqtisadiyyatın məhv edilməsinə "görə təqsirli bilindilər.[4, s.483]

Digər kommunist liderlərdən fərqli, daha zəif prosovet əhval-ruhiyyəli Çauşesku sovet imperiyası dağıldığı zaman ən ağır cəza çəkən lider oldu.onun edamı hakimiyyəti çevriliş yolu ilə qaytarmağa çalışan digər kommunistlər üçün dərs oldu.

Rumıniyada Çauşeskuya müxalif olan kommunist partiyanın nümayəndəsi İon İlieskunun rəhbərliyi altında Milli Qurtuluş Cəbhəsi formalaşdırıldı. Qeyri kommunist müxalifət MQC hökumətini tanımaqdan imtina etdi.1990-cı ilin yanvarında onlar etiraz kampaniyasını bərpa etdilər.Həmin ilin mayında beynəlxalq nəzarət altında keçirilən seçkilərdə MQC qələbə çaldı. İliesku səslərin 85%-ni qazanaraq Rumıniya prezidenti seçildi. Parlament seçkilərində də MQS qələbə qazandı. [4, s.484] 1992-ci ildə o yenidən prezident seçildi, lakin 1996-cı il seçkilərində Emilio Konstantineskuya uduzdu. Konstantinesku ilk qeyri-kommunist hökumət təşkil etdi.Çauşeskudan sonra bir çox hökumət hakimiyyətə gəldi,lakin bu dövr ərzində Rumıniya əhalisinin həyat səviyyəsi kəskin şəkildə aşağı düşdü.

SSRİ-də mərkəzdənqaçma meyllərinin güclənməsi, milli zəmində münaqişə ocaqlarının yaranması, iqtisadiyyatın iflas səviyyəsinə çatması və s. amillər bu dövlətin süqutunu tezləşdirdi. XX əsrin 80-ci illərin sonuna yaxın müttəfiq respublikaların suverenliyi və müstəqilliyi məsələsi kəskin şəkildə qoyuldu.SSRİ-də hakimiyyətini itirməkdə olan M.Qorbaçov Şərqi Avropada vəziyyətin inkişafına təsir göstərmək iqtidarında deyildi. Keçmiş sosialist ölkələri Moskvanın təsir alətlərindən qəti olaraq qurtulmağa can atırdılar. 1991-ci il fevralın 25-də VMT ölkələrinin XİN və MN-nin Budapeştdə keçirilən görüşündə 1991-ci il aprelin 1-dən VMT hərbi təşkilatının fəaliyyətini dayandırması haqqında razılıq əldə olundu.1991-ci il iyulun 1-də isə VMT siyasi-məşvərət komitəsinin qərarına əsasən Varşava Müqaviləsi Təşkilatı tamamilə ləğv edildi. Bundan öncə isə, 1991-ci il iyunun 27-də Budapeştdə QİYŞ-nın özünü buraxması haqqında müqavilə imzalanmışdı. 1990-cı ildə keçmiş sosialist ölkələri qərbə üz tutaraq NATO ölkələri ilə daha sıx əməkdaşlıq etmək, gələcəkdə isə alyansın assosiasiyalı üzvlüyünə nail olmaq niyyətində olduqları haqda bəyanatlar verməyə başladılar. Qərbi Avropa strukturlarına inteqrasiya Şərqi Avropa ölkələrinin xarici siyasətlərinin prioritet istiqamətləri elan edildi. NATO və Ai-na üzvlüyə can atan Şərqi Avropa ölkələri öz təhlükəsizliklərini təmin etməklə yanaşı, qərb dəyərlərini mənimsəyərək Avropa ailəsinə girməyə cəhd göstərdilər. 1990-cı ilin iyulunda NATO Şurasının Londonda keçirilən zirvə toplantısında keçirilmiş sosialist ölkələri ilə əməkdaşlığın zəruriliyi haqqında bəyannamə qəbul edildi.

Bu ölkə liderləri NATO-nun Brüsseldəki mənzil-qərargahına rəsmi dəvət aldılar. 1990-cı ilin avqustundan etibarən NATO keçmiş sosialist ölkələrinin bir çoxu ilə diplomatik münasibətlər yaratdı.[ 6, s.184]

Şərqi Avropa ölkələrində kommunist rejimlərinin süqutundan sonra transformasiya prosesləri başlandı və demokratik islahatlar yolu seçən bu ölkələr "keçid iqtisadiyyatı olan ölkələr" və "keçid ölkələr" (transitional societies) adlandırılmağa başlandı.Yeni qeyri-kommunist və ya koalisiya hökumətləri siyasi və iqtisadi dəyişikliklər edərək bir sıra islahatlar həyata keçirdilər. Bu gün NATO və Aİ üzvü olan Şərqi Avropa ölkələrinin keçdiyi yol Avropa və Avroatlantika strukturlarına inteqrasiyanı xarici siyasət prioriteti elan etmiş postsovet ölkələri üçün nümunə ola bilər.

## *ƏDƏBIYYAT*

1. Дыбковская А., Жарын М., Жарын Я. История Польши с древнейших времен до наших дней. Варшава, 1995; 381 с.

2. Внешняя политика Российской Федерации 1992-1999./ Под редакц. А.Торкунова. Москва, 2000; 328 с.

3. П.Кальвокоресси. Мировая политика 1945-2000. в 2-х книгах. Книга 1.Москва, 2003; 594 с.

4. Системная история международных отнешиний. / Под редакц. А.Богатурова. том 2. Москва, 2007; 720 с.
5. Современные международные отношения. / Под редакц. А.Торкунова. Москва, 2001; 584 с.
6. NATO məlumat kitabı. Brüssel, 2008. 388 s.
7. Вызовы демократизации: Перспективы политической трансформации в Восточной Европе. www.humanities.edu.ru/db/msg/45671

## ПОЛИТИЧЕСКИЕ РЕФОРМЫ В ВОСТОЧНОЙ ЕВРОПЕ: ПРОБЛЕМЫ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ

В данной статье рассмотрена изменение политических систем в Восточной Европе после завершения холодной войны. Изменение политического курса советского руководства и отказ СССР от "доктрины Брежнева", оправдываюшей прямое, в том числе военное вмешательство в дела стран, входивших в сферу советского влияния открыл дорогу демократическим революциям второй половины 1989 г., в ходе которых пали коммунистические режимы в ГДР, Болгарии, Чехословакии. Эти государства, как до них Венгрия и Польша, встали на путь реформ, в основу которых были положены ценности демократии, политического плюрализма, рыночной экономики. Состоявшиеся в большинстве стран Восточной Европы в 1989 г. первые за послевоенный период свободные многопартийные выборы привели к окончательному крушению коммунизма в Европе.

## POLITICAL REFORMS IN THE EASTERN EUROPE: PROBLEMS AND THE BASIC DIRECTIONS

In given article it is considered change of political systems in the Eastern Europe after end of cold war. Change of a political policy of the Soviet management and refusal of the USSR from "Brezhnev's doctrine", justify direct, including military intervention in affairs of the countries entering into sphere of the Soviet influence has opened road to democratic revolutions of second half of 1989 in which course communistic modes in GDR have fallen, Bulgaria, Czechoslovakia. These states as to them Hungary and Poland, have followed a way of reforms, to which basis have been put values of democracy, political pluralism, market economy. Taken place in the majority of countries of Eastern Europe in 1989 the free multi-party elections first for the post-war period have led to definitive wreck of communism in Europe.

***Rəyçilər: t.e.n.Ş.Əliyev, t.e.d.R.Süleymanov.***
***BSU «Beynəlxalq münasibətlər» kafedrasının 24 oktyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***